# AZƏRBAYCAN RESPUBLİKASI
# DAXİLİ İŞLƏR NAZİRLİYİ
# POLİS AKADEMİYASI

**Elmi Şuranın 27 dekabr 2025-ci il tarixli iclasının qərarı (protokol №2)**

## Tədqiqatçıların elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması mexanizmi

**Bakı – 2025**

## Giriş

Elmi-tədqiqat işlərinin planlaşdırılması və həyata keçirilməsi Akademiyanın elmi potensialının inkişafına təkan verən əsas amillərdən biridir. Bu istiqamətdə Akademiyanın profilinə uyğun olaraq hazırlanmış elmi-tədqiqat işləri müvafiq sahənin informasiya təminatında mühüm rol oynayır. Magistr və doktorantlar üçün tərtib edilmiş dərs vəsaitləri, eləcə də digər informasiya resursları tədris prosesində fənnin keyfiyyət göstəricilərinin yüksəldilməsinə təsir edən amillərdən biridir.

Elmi-tədqiqat fəaliyyəti ilə bağlı hazırlanmış müxtəlif tədris resursları Akademiyanın Kitabxana fondunda toplanaraq oxucuların istifadəsinə təqdim olunur. Bu isə öz növbəsində Akademiyada təhsilalanların ixtisaslı kadr kimi formalaşmasında əvəzolunmaz rol oynayır.

Tədqiqatçıların elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması mexanizmi elmi fəaliyyətə marağı artırmaq, faydalı iş əmsalını və keyfiyyəti yüksəltmək üçün tətbiq olunur.

## 1. Ümumi müddəalar

1.1. Bu Mexanizm Azərbaycan Respublikasının Konstitusiyasının, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun və “Elm haqqında" Qanununun, müvafiq normativ hüquqi aktların, Polis Akademiyasının Nizamnaməsinin və Elmi Şurasının qərarlarının müddəalarını rəhbər tutur.

1.2. Tədqiqatçıların elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması mexanizmi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında elmi-tədqiqat fəaliyyətinin təşviqi və inkişafı məqsədi ilə hazırlanmış və Akademiyanın professor-müəllim heyətinə, tədqiqatçılara və doktorantlara şamil olunur.

1.3. Elmi-tədqiqat fəaliyyəti könüllülük, şəffaflıq və ədalət prinsipləri əsasında qiymətləndirilir.

## 2. Stimullaşdırmanın məqsədi

2.1. Elmi məqalələri, layihələri, innovativ işləri və keyfiyyəti artırmaq;

2.2. Akademiyanın elmi nüfuzunu yüksəltmək;

2.3. Gənc tədqiqatçıların elmi fəaliyyətə marağını artırmaq;

2.4. Elmi-tədqiqat fəaliyyətinin effektiv təşkili məqsədilə maddi-texniki və institusional elmi infrastrukturu təmin etmək.

## 3. Stimullaşdırma formaları

**3.1. Maliyyə dəstəyi**

Akademiyada fəaliyyət göstərən professor-müəllim heyətinə elmi-tədqiqat fəaliyyəti ilə bağlı mükafatların verilməsi üçün rəhbərlik qarşısında vəsatətin qaldırılması aşağıdakı hallarda nəzərdə tutula bilər:

- Elmi-tədqiqat işlərinin ərsəyə gətirilməsi;
- Beynəlxalq indekslənmə bazalarına ("Web of Science", "Scopus" və s.) daxil olan jurnallarda elmi məqalələrin dərc edilməsi;
- Dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanması.

**3.2. Elmi dəstək**

- Tədqiqatçıların etibarlı və genişhəcmli elmi məlumatlara operativ şəkildə çıxışını təmin etmək məqsədilə müasir elmi bazalara giriş imkanlarının yaradılması;
- Beynəlxalq və yerli tədbirlərdə (konfrans, dəyirmi masa, konqres) iştirak üçün təşkilati və maliyyə dəstəyi göstərilməsi.

## 4. Qiymətləndirmə qaydası

4.1. Elmi-tədqiqat fəaliyyəti ildə bir dəfə qiymətləndirilir.

4.2. Elmi-tədqiqat fəaliyyəti qiymətləndirilərkən professor-müəllim heyətinin reytinq meyarları əsas götürülür.

4.3. Qiymətləndirmə zamanı aşağıdakı məsələlər nəzərə alınır:

- elmi məqalələrin nəşri;
- Akademiyanın ixtisas profilinə uyğun elmi layihələrin hazırlanması;
- elmi-tədqiqat işlərinin praktik sahədə istifadə olunan metodlar, proqramlar, tövsiyələr və konkret problemlərin həlli ilə real fayda verməsi.

4.4. Qiymətləndirmə Akademiyada yaradılmış müvafiq komissiya tərəfindən aparılır.

## 5. Gənc alimlərin təşviqi

5.1. Gənc tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə "İlin gənc tədqiqatçısı" nominasiyası təsis edilir.

5.2. DİN-in struktur qurumlarından və digər təşkilatlardan dəvət olunmuş mütəxəssislərin təcrübələrindən istifadə olunur.

## 6. Yekun müddəalar

6.1. Bu Mexanizm Akademiyanın Elmi Şurası tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Nəzərdə tutulmuş dəyişikliklər və əlavələr yalnız Akademiyanın Elmi Şurasının qərarı ilə edilə bilər.

6.3. Mexanizmin icrasına nəzarət Akademiya rəisinin birinci müavininə həvalə olunur.